WORLD BANK GROUP

# NEWS RELEASE

## Məhsuldarlığın təşviq olunması Avropa və Mərkəzi Asiya ölkələrində ÜDM artımına təkan verəcək və daha çox və daha keyfiyyətli iş yerləri yaradacaq

**WASHINGTON, 24 noyabr 2025** – Dünya Bankının bu gün açıqladığı yeni hesabatına görə, Avropa və Mərkəzi Asiya (AMA) ölkələri mövcud iqtisadi aktivlərdən daha səmərəli istifadə etməli və şirkətlərin və insanların bacarıqlarına sərmayə qoymağa təcili olaraq çalışmalıdırlar ki, daha sürətli iqtisadi artımı təmin etsinlər.

*TIDES of Change: Igniting Productivity Growth in Europe and Central Asia* (“*Dəyişiklik Dalğaları: Avropa və Mərkəzi Asiyada Məhsuldarlıq Artımını Alovlandırmaq*”) adlanan hesabat göstərir ki, sadəcə daha çox kapital və işçi cəlb etmək iqtisadi artımı gücləndirmək üçün zəruri olsa da, kifayət deyil, çünki bu, artım tənliyinin yalnız bir tərəfini təşkil edir. Digər tərəf isə **məhsuldarlıqdır**: məhz o, kapital və işçi qüvvəsindən nə qədər səmərəli istifadə olunduğunu göstərir.

Məhsuldarlığın 10% artması regionda təxminən **2 milyon yeni iş yeri** yarada bilər ki, bu da məhsuldarlıqla məşğulluğun artımı arasındakı güclü əlaqəni vurğulayır.

Hesabatda qeyd olunur ki, qlobal maliyyə böhranından sonra regionun artım tempinin yavaşlaması demək olar ki, tamamilə məhsuldarlıqda artımın səngiməsi ilə bağlıdır. Bu yavaşlama islahatların tempinin zəifləməsi ilə üst-üstə düşüb və bazar təhriflərinin mövcud olmasına (məsələn, az səmərəli dövlət müəssisələrinin yüksək payının qalmasına) imkan verib, resurslar isə ən yüksək mənfəət gətirə biləcək sahələrə yönəldilməyib. Qlobal bazarlara natamam inteqrasiya və şirkətlərin bacarıqlarının zəifliyi ilə birlikdə bu amillər məhsuldarlığa mane olur və ölkələrin potensialını məhdudlaşdırır. Məhsuldarlıq yaxşılaşmasa isə əlavə kapital yatırımlarının mənfəətliyi əvvəlki kimi yüksək olmur.

Hesabatda həmçinin vurğulanır ki, məhsuldarlığın artırılması son nəticədə rifahın artmasına, daha çox iş yerlərinin yaranmasına və əməkhaqlarının yüksəlməsinə gətirib çıxarır. Əgər AMA ölkələrinin 2008-ci ildən sonrakı məhsuldarlıq artımı maliyyə böhranından əvvəlki tempə uyğun olsaydı, bu gün regionun ÜDM-i təxminən **62 faiz** daha yüksək ola bilərdi.

Regionun ixracatçıları ən məhsuldar şirkətlərdir və onlar şirkətlərin ümumi sayında az paya malik olsalar da, əksər AMA ölkələrində iş yerləri, investisiyalar və əlavə dəyər baxımından qeyri-mütənasib dərəcədə böyük rol oynayırlar. Əslində, AMA ölkələri potensial imkanlarından orta hesabla 45% az ticarət edir, bu isə ticarət inteqrasiyası və xarici birbaşa investisiyalardan (XBİ) əldə edilə biləcək böyük, istifadə olunmamış potensialın mövcudluğunu göstərir. Yaxşı xəbər odur ki, əgər bu ölkələr həmin potensialdan istifadə etsələr, çoxmillətli şirkətlərin bazarlara daha yaxın olan və dayanıqlı dəyər zəncirlərinə keçidi ilə yaranan imkanlardan da faydalana bilərlər. Bu imkanlardan istifadə etmək üçün biznes mühitində islahatlar və yerli şirkətlərin bacarıqlarının gücləndirilməsi tələb olunur ki, onlar yüksək məhsuldarlığa malik çoxmillətli şirkətlərlə daha yaxşı əməkdaşlıq edə bilsinlər.

Hesabatda qeyd olunur ki, regionun məhsuldarlıq potensialını açmaq üçün ticarət, investisiya, rəqəmsallaşma, səmərəlilik və bacarıqlar sahələrində ünvanlı tədbirlərlə islahatlara yeni təkan verilməlidir.

“Avropa və Mərkəzi Asiya ölkələri transformasiya qabiliyyətlərini dəfələrlə nümayiş etdiriblər, lakin indi region yeni maneələri – geosiyasi parçalanma, texnologiyaların sürətli inkişafı və demoqrafik dəyişikliklər kimi – aşaraq öz yolunu müəyyən etməlidir,” – deyə **Dünya Bankının Rifah departamentinin Avropa və Mərkəzi Asiya üzrə Regional Direktoru Asad Alam bildirib**. “Region həlledici mərhələdədir. İslahatların dinamikasını bərpa edərək və məhsuldarlığın artırılmasına prioritet verərək, region ölkələri daha çox və daha keyfiyyətli iş yerləri yarada, yaşayış səviyyəsini yüksəldə və daha dayanıqlı gələcək qura bilərlər. İndi hərəkətə keçmək vaxtıdır.”

Hesabatda məhsuldarlıq tendensiyalarına, məhsuldarlığın artımına mane olan problemlərin səbəblərinə və miqyasına, eləcə də AMA ölkələrinin mövcud imkanlarına yeni baxış imkanı verən yeni və unikal müəssisə səviyyəli məlumatlardan istifadə olunub. Bu məlumatlar 2008–2023-cü illərdə 16 ölkədə

müxtəlif sahələr üzrə milli statistika xidmətləri, vergi orqanları və əlavə mənbələrdən toplanmış 40 milyondan çox müəssisə səviyyəli müşahidənin nəticələrini sistemləşdirir.

“Faktlar danılmazdır,” – deyə **hesabatın əsas müəllifi və Dünya Bankının Rifah departamentinin təcrübə rəhbəri Leonardo İakovone bildirib.** “Aktiv rəqabət şəraitində müəssisələr texnologiya və maliyyəyə çıxış əldə etdikdə, işçilər isə texnologiyaları tətbiq etmək və uyğunlaşmaq üçün zəruri bacarıq və ixtisasa malik olduqda, məhsuldarlıq artır – istər müəssisə daxilində, onlar daha məhsuldar olduqda, istərsə də ümumi iqtisadiyyatda resurslar “lider”lərə yönəldikdə”.

Hesabatın nəticələri islahat proqramının fəallaşdırılmasına kəskin zərurətini vurğulayır. Bura məhsuldarlığın artırılması gündəliyinin milli plan və büdcələrə inteqrasiyasında hökumətlərin əsas rolunun təmin edilməsi, bazarda rəqabət üçün şəraitin yaradılması, dövlət satınalmalarında şəffaflığın təmin edilməsi və islahatların gedişatının qiymətləndirilməsi daxildir. Hesabatda qeyd olunur ki, düzgün iqtisadi siyasət və rəhbər orqanların, iri sahibkarların və tərəfdaşların marağı olduğu halda, AMA regionu ölkələri artım tempini bərpa edə və öz iqtisadi gələcəyini dəyişə bilərlər.

**Əlaqə üçün:**
*World Bank Media Relations:* (202) 473-7660, press@worldbank.org;

Website: http://www.worldbank.org/eca

Facebook: https://www.facebook.com/WorldBankEuropeCentralAsia/
X (Twitter): https://x.com/WorldBankECA
YouTube: http://www.youtube.com/worldbank

**News Release**
2025/021/ECA